# ASC “Xalq” Bankının Dividend Siyasəti

**Sənədin nömrəsi: XB-S/008**

**Versiya: 02**

**Bakı – 2024**

# Mündəricat


1. Ümumi müddəalar .......... 3
2. Anlayışlar .......... 3
3. Dividend ödənişinin ümumi şərtləri .......... 4
4. Dividendlərin həcminin və məbləğinin hesablanması qaydası .......... 4
5. Dividendlərin elan olunmasına dair qərarın qəbulu .......... 5
6. Dividendlərin ödənilməsinə məhdudiyyətlər .......... 5
7. Dividend almaq hüququ olan şəxslər .......... 6
8. Dividendlərin ödənilməsinin qaydası və müddətləri .......... 6
9. Dividendlərin ödənilməsinin təşkili .......... 7
10. Məsuliyyət .......... 7
11. Yekun müddəalar .......... 8

## 1. Umumi müddəalar

**1.1** "ASC "Xalq" Bankının Dividend Siyasəti"nin (bundan sonra - Siyasət) məqsədi səhmdarları və tələb edildikdə digər şəxsləri ASC "Xalq" Bankının dividend siyasəti haqqında məlumatlandırmaq, habelə dividendlərin ödənilməsi, ödənişlərin həcminin müəyyən edilməsi qaydalarını müəyyən etməkdir.

**1.2** Bu Siyasət dividendlərin həcminin hesablanması, elan edilməsi və ödənilməsi qaydalarını, dividendlərin ödənilməsi ilə əlaqədar məhdudiyyətləri, habelə dividendlərin ödənilməsi ilə əlaqədar digər zəruri məsələləri əhatə edir.

**1.3** Bu Siyasət Bankın ümumi maliyyə strategiyasının bir hissəsi kimi, səhmlərin bazar dəyərinin artması baxımından istifadə edilən və kapitallaşdırılan mənfəət arasında optimal nisbəti müəyyən edir. Dividend siyasəti Bankın kapital bazarındakı vəziyyətinə, xüsusilə də səhmlərin qiymətinə ciddi təsir edir.

**1.4** Bu Siyasətin hazırlanması zamanı aşağıdakı normativ hüquqi aktlardan istifadə olunmuşdur:

- Azərbaycan Respublikasının Mülki Məcəlləsi;
- Azərbaycan Respublikasının Vergi Məcəlləsi;
- "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu;
- Azərbaycan Respublikası Mərkəzi Bankının "Banklarda korporativ idarəetmə Standartları";
- Bankın Nizamnaməsi.

## 2. Anlayışlar

**2.1.** Siyasətdə istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

**2.1.1. Dividend** –Bankın öz təsisçilərinin (payçılarının) və yaxud səhmdarlarının xeyrinə xalis mənfəətinin bölüşdürülməsi, o cümlədən Bank ləğv edilərkən xalis mənfəəti hesabına formalaşan əmlakın (aktivlərin) bölüşdürülməsi, habelə səhmlərin (payların) xalis mənfəət hesabına artırılan nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödənişlərdir.

Bankın ləğvi ilə bağlı əmlakın bölüşdürülməsi nəticəsində əldə edilən gəlir(bölüşdürülməmiş mənfəət hesabına formalaşan əmlak istisna olmaqla), həmçinin səhmdarların səhmlərinin faiz nisbətini dəyişdirməyən səhmlərin bölüşdürülməsi, səhmlərin (hissələrin, payların) nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı edilən ödənişlər dividend sayılmır;

**2.1.2. Dividend siyasəti** –Bankın səhmdarlarına ədalətlilik, şəffaflıq, inkişaf ,sabitlik və Bankın müsbət maliyyə nəticələri əldə edəcəyinə əsaslanma prinsiplərinə uyğun dividendlərin ödənilməsi qaydasını tənzimləyən siyasətdir;

**2.1.3. Dividend ödənişi** – dividend almaq hüququ olan şəxslərə müvafiq pul və ya digər ödəmələr şəklində edilən ödənişin həyata keçirilməsidir;

**2.1.4. Dividendlərin ödənilməsi haqqında qərar** – dividend almaq hüququ olan şəxslərə dividendlərin ödənişini həyata keçirmək haqqında Səhmdarların Ümumi Yığıncağının qərarıdır;

**2.1.5. Səhmdar** – səhmdar cəmiyyətinin bir və ya daha çox sayda səhmlərinin qanunvericiliklə müəyyən edilmiş qaydada mülkiyyətçisi olan fiziki və (və ya) hüquqi şəxsdir;

**2.1.6. Xalis mənfəət** – Bankın maliyyə hesabatlarına əsasən müəyyən edilən və vergitutmadan sonra Bankın sərəncamında qalan mənfəət;

**2.1.7. Səhm** - onun sahibinin (səhmdarın) səhmdar cəmiyyətin mənfəətinin bir hissəsini dividend şəklində almaq, səhmdar cəmiyyətin idarə edilməsində iştirak etmək və o, ləğv edildikdən sonra qalan əmlakın bir hissəsini əldə etmək hüququnu təsbit edən investisiya qiymətli kağızıdır;

**2.1.8. Adi səhm üzrə dividend** - Bankın xalis mənfəətinin səhmdarlara hər bir adi səhm üzrə hesablanmış ödənişlər şəklində bölüşdürülmüş hissəsidir;

**2.1.9. İmtiyazlı səhm üzrə dividend** - Bankın təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq, imtiyazlı səhm mülkiyyətçilərinə, bir qayda olaraq, səhmin nominal dəyərinin sabit faizi şəklində ödənilən vəsaitdir.

## 3. Dividend ödənişinin ümumi şərtləri

**3.1** Bankın Nizamnaməsində digər hallar nəzərdə tutulmadıqda, Bankın maliyyə ilinin nəticələrinə əsasən dövriyyədə olan səhmlər üzrə illik dividendlərin ödənilməsi barədə Bankın öhdəliyi onların ödənilməsi haqqında Səhmdarların Ümumi Yığıncağının qərarının qəbul edildiyi gündən etibarən yaranır.

**3.2** Dividendlərin ödənilməsinə dair qərarın verilməsi Bankın hüququdur. Bank bu Siyasətin 6.1-ci bəndində qeyd edilən hallarda dividend ödənişi elan edə bilməz.

**3.3** Bu Siyasətdə dividendin elan edilməsi və ödənilməsini qadağan edən hallar istisna olmaqla, elan edilmiş dividendlərin səhmdarlara ödənilməsi Bankın öhdəliyidir. Bank bu öhdəliyinin icra edilməməsinə görə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən səhmdarlar qarşısında məsuliyyət daşıyır. Bank elan edilmiş dividendləri bu siyasətin 6.2-ci bəndində qeyd edilən hallarda ödəmir.

## 4. Dividendlərin həcminin və məbləğinin hesablanması qaydası

**4.1** Dividend manatla, hər bir səhm üçün hesablanır.

**4.2** Dividendin həcmi maliyyə ilinin sonuna illik maliyyə hesabatı üzrə əldə edilmiş xalis mənfəətin həcminə əsasən müəyyən edilir. İllik dividendlərin ödənilməsi məqsədilə ayrılan xalis mənfəətin həcmi məhdudiyyət tətbiq edilmədən Səhmdarların Ümumi Yığıncağının qərarı ilə müəyyən edilir.

**4.3** Hər bir səhmə düşən dividendin həcmini hesablamaq üçün dividendlərin ödənilməsinə ayrılan xalis mənfəət tam ödənilmiş səhmlərin faktiki sayına bölünür. Bu zaman realizə edilməmiş (bankın balansında olan) səhmlər nəzərə alınmır. Hər bir səhmdara verilən dividendlərin həcmi, bir səhmə düşən dividend məbləğini səhmdarın sahib olduğu səhmlərin sayına vurmaqla müəyyən edilir.

**4.4** Dividendlər hesablanarkən səhmlərin hər bir növü və nominalı üzrə hər səhmə düşən məbləğ eyni olmalıdır.

**4.5** Bank adi səhmlər üzrə dividendlərin hesablanmasını (bölüşdürülməsini) imtiyazlı səhmlər üzrə dividendlərin hesablanmasından (bölüşdürülməsindən) sonra həyata keçirir.

## 5. Dividendlərin elan olunmasına dair qərarın qəbulu

**5.1** Maliyyə ilinin nəticələrinə görə, mənfəətin dividend şəklində səhmdarlar arasında bölüşdürülməsi ilkin olaraq Müşahidə Şurasının iclasında müzakirə edilir, daha sonra Səhmdarların Ümumi Yığıncağına çıxarılır. Təklif Müşahidə Şurasının iclasının protokolundan çıxarışı əsasında irəli sürülür və təklifdə Bankın xalis mənfəətindən hər səhmə düşən dividendin məbləği göstərilməklə, ödəniləcək dividendin ümumi həcmi, o cümlədən bölüşdürülməmiş mənfəət hesabına aid olunacaq məbləğ qeyd olunur.

**5.2** Bankın Nizamnaməsində digər hallar nəzərdə tutulmadıqda və qanunvericiliklə müəyyən olunan məhdudiyyətlər nəzərə alınmaqla, Bankın Səhmdarlarının Ümumi Yığıncağı maliyyə ilinin nəticələrinə əsasən illik dividendlərin ödənilməsi dair qərar qəbul edə bilər. Dividendin ödənilməsinə dair qərar qəbulu zamanı bankın kapital adekvatlığı, likvidlik göstəriciləri və digər normativ tələblər nəzərə alınmalıdır. Bu zaman müvafiq qərar, prudensial məqsədlər üçün Bank fəaliyyətinə nəzarət edən tənzimləyici orqana təqdim edilmiş illik maliyyə hesabatları əsasında qəbul edilir. Əgər Bankın kənar auditoru tərəfindən təsdiqlənmiş illik maliyyə hesabatında xalis mənfəət, prudensial məqsədlər üçün müvafiq tənzimləyici orqana təqdim olunmuş maliyyə hesabatında olan xalis mənfəətdən fərqli olarsa, Bank tərəfindən aşağı olan mənfəət əsas götürülür.

**5.3** Dividendlərin həcminə dair təklif verilərkən aşağıdakılar rəhbər tutulur:

- Maliyyə hesabatlarına əsasən Bankın sərəncamında qalan xalis mənfəətin həcmi;
- Bankın inkişafı və uzunmüddətli perspektivinə dair Bankın və səhmdarların maraqları;
- Bankın maliyyə-təsərrüfat planları;
- Azərbaycan Respublikası qanunvericiliyinin tələbləri.

**5.4** Dividendlərin ödənilməsinə dair qərarda aşağıdakılar müəyyən edilməlidir:

- Dividendlərin ödənilməsinə yönəldilən xalis mənfəətin məbləği;
- Dividendlərinin ödənişi elan edilən səhmlərin kateqoriyası və növü;
- Hər hansı bir səhm kateqoriyası və növü üçün dividendin həcmi;
- Dividend ödənişinin müddəti;
- Dividend ödənişinin forması.

## 6. Dividendlərin ödənilməsinə məhdudiyyətlər

**6.1** Bank səhmlər üzrə dividendləri aşağıdakı hallarda **elan edə bilməz**:

- Bankın nizamnamə kapitalının elan olunmuş məbləği tam ödənilmədikdə;
- Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən Bank müflis elan edilmişdirsə və ya dividendlərin ödənilməsi Bankın müflis olmasına səbəb olarsa;
- Dividendlərin ödənilməsi haqqında qərar qəbul edildiyi gün Bankın xalis aktivləri onun nizamnamə kapitalından az olarsa və ya dividendlərin ödənilməsi nəticəsində az olacaqsa, ehtiyat fondu və nizamnamədə nəzərdə tutulmuş imtiyazlı səhmlərin dəyərindən az olarsa;
- Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda.

**6.2** Bank elan edilmiş dividendləri aşağıdakı hallarda ödəməyə bilər:

- Əgər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən Bank müflis elan edilmişdirsə və ya dividendlərin ödənilməsi Bankın müflis olmasına səbəb olarsa;
- Əgər dividendlərin ödənildiyi gün Bankın xalis aktivləri onun nizamnamə kapitalından az olarsa, ehtiyat fondu və nizamnamədə nəzərdə tutulmuş imtiyazlı səhmlərin dəyərindən az olarsa;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda.

## 7. Dividend almaq hüququ olan şəxslər

**7.1** Hər dividend ödənişi üçün Bankın Maliyyə idarəsi səhmlər üzrə dividend almaq hüququ olan səhmdarların siyahısını və səhm sayını tərtib edir.

**7.2** Səhmlər üzrə dividend almaq hüququ olan şəxslərin siyahısı, dividendlərin ödənilməsi barədə qərara əsasən, yəni hansı növ səhmlər üzrə dividend ödəniləcəyi müəyyən edildikdən sonra tərtib edilir. Bu siyahı səhmdarların yığıncağında iştirak edəcək şəxslərin siyahısı tərtib edildiyi, dividendlərin ödənilməsinə dair qərar qəbul edildiyi gün hazırlanır.

## 8. Dividendlərin ödənilməsinin qaydası və müddətləri

**8.1** Səhmdarların Ümumi Yığıncağının qərarında fərqli qayda müəyyən edilmədikdə, dividendin ödənilməsi qərarın qəbul olunduğu tarixdən 30 gün müddətində icra edilir. Dividendlərin ödənilməsinə yönəldilən mənfəət hər bir səhmdara, onun sahib olduğu adi səhmlərin sayına müvafiq olaraq bölüşdürülür. Əgər bir səhmin bir neçə sahibi varsa və onlar arasında bağlanmış müqavilədə digər hal nəzərdə tutulmayıbsa, o zaman dividend mütənasib qaydada bölünür.

**8.2** İdarə Heyəti elan olunmuş dividendlərin səhmdarlara ödənilməsini təmin etməlidir.

**8.3** Səhmdar, onun dividend almaq hüququna malik olan şəxslər siyahısına daxil olunması, həmçinin dividendlərin ödənilməsi qaydası, tarixi və yeri barədə sorğu ilə Banka müraciət edə bilər. Bu halda Bank sorğunun daxil olduğu tarixdən etibarən 5 (beş) iş günü ərzində səhmdara müvafiq cavab göndərməlidir.

**8.4** Bank tərəfindən dividend ödənişi Bank fəaliyyətinə nəzarət edən tənzimləyici orqana bu barədə qərar qəbul edilən tarixdən ən geci 5 (beş) iş günü müddətində məlumatlandırmaqla həyata keçirilir.

**8.5** Bank səhmdarlara dividend ödəyərkən vergi agenti kimi çıxış edir. Dividend səhmdarlara qanunvericilikdə nəzərdə tutulmuş vergilər tutulduqdan sonra ödənilir.

## 9. Dividendlərin ödənilməsinin təşkili

**9.1** Dividendlərin ödənilməsi ilə bağlı Bankın idarəetmə orqanlarının qərarlarının rəsmiləşdirilməsi İnsan resursları və İşlər idarəsi tərəfindən, səhmdarlara dividendlərin hesablanması və ödənilməsi Bankın Maliyyə İdarəsi tərəfindən həyata keçirilir.

**9.2** Bankın Biznesin inkişafı idarəsi dividendlərin elan edilməsinə dair məlumatı, ödəniş üsulu və tarixi barədə məlumatı kütləvi informasiya vasitələrində və Bankın korporativ saytında Səhmdarların Ümumi Yığıncağının qərarı qəbul edilən tarixdən 15 gündən gec olmayaraq yerləşdirir. Bank dividend almaq hüququ olan bütün səhmdarları sifarişli məktub göndərməklə dividendlərin elan edilməsi barədə məlumatlandıra bilər.

**9.3** Məlumatda aşağıdakılar əks etdirilməlidir:

- Dividendlərin ödənilməsinə dair qərar qəbul edən orqanın adı;
- Dividendlərin elan edilmə tarixi;
- Dividend almaq hüququ olan şəxslərin siyahısı və onun tərtib edilmə tarixi;
- Ödəniləcək dividendin həcmi;
- Dividendin ödənilmə forması;
- Dividendin ödənilmə tarixi;
- Dividendin gəlir vergisinin tutulmasından sonra ödənildiyinə dair məlumat;
- Dividendlərin ödənilməsinə dair məlumat.

## 10. Məsuliyyət

**10.1** Bankın İdarə Heyəti dividendlərin ödənilməsinə dair Səhmdarların Ümumi Yığıncağının qərarının vaxtında və düzgün icrasına görə cavabdehdir.

**10.2** Bankın Biznesin inkişafı idarəsi dividendlərin elan edilməsi, ödəniş üsulu və tarixi barədə məlumatın düzgün və tam şəkildə kütləvi informasiya vasitələrində və Bankın korporativ saytında yerləşdirilməsinə görə məsuliyyət daşıyır.

**10.3** Bu Siyasətin mütəmadi yenilənməsi və Bankın strateji məqsədlərinin dəyişməsi halında ona yenidən baxılmasına görə Bankın Maliyyə İdarəsi məsuliyyət daşıyır.

**10.4** Bu Siyasətin tələblərinin pozulmasına görə, dividendlərin düzgün hesablanmamasına və ödənilməməsinə, habelə bunun nəticəsində Banka dəymiş zərərə görə Bankın müvafiq işçisi (işçiləri) qüvvədə olan qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyır(lar).

## 11. Yekun müddəalar

**11.1.** Bu Siyasət Bankın Müşahidə Şurasının qərarı ilə müəyyən edilən qaydada və tarixdən qüvvəyə minir.

**11.2.** Bu Siyasətə əlavə və dəyişikliklər edilməsi ilə əlaqədar məsələlər Müşahidə Şurasının qərarı əsasında həll edilir.

**11.3.** Bu Siyasət qüvvəyə mindikdən sonra qanunvericilik aktlarında onun hər hansı müddəasının hüquqi qüvvəsinə təsir göstərən dəyişiklik olduğu təqdirdə Siyasətin qanunvericiliklə ziddiyyət təşkil etməyən hissəsi öz qüvvəsini olduğu kimi saxlayır, ziddiyyət təşkil edən hissəsində müvafiq qanunvericilik aktı əsas götürülür.

**11.4.** Bu Siyasətlə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq tənzimlənir.